# Humanizmin sosial-psixoloji mahiyyəti

**Əminə Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
**E-mail:** emine_qedimova@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** sosial pedaqogika, humanizm, mənəvi dəyərlər, insan amili, tələbat, münasibət
**Ключевые слова:** социальная педагогика, гуманизм, духовные ценности, человеческий фактор, потребность, отношение
**Key words:** social pedagogy, humanism, spiritual values, human factor, need, attitude

Müasir təhsil konsepsiyası üçün insan amili böyük əhəmiyyətə malikdir. Dünya mədəniyyəti, tarixi, mənəvi sərvətlərin əmələ gəlməsi və təntənəsi-bunların hamısı insan amili ilə bağlıdır. İnsan həyatının mənasını xalqa, Vətənə xidmət etməkdə görür, başqa insanlar üçün yaşamağa, onlara təmənnasız maddi və mənəvi kömək etməyə başlayır.

Humanizm əxlaq tərbiyəsinin təzahür formalarından biri kimi insanlar arasındakı münasibətlərdə öz ifadəsini tapır. O, tarixən xalqımıza xas olan mühüm keyfiyyətlərdəndir. Şəxsiyyətin hərtərəfli inkişafı şərtləndirən biri də humanistlikdir. Humanizm mühüm əxlaqi keyfiyyətdir. Humanizm insana məhəbbət və qayğı deməkdir. Humanizm ali hiss kimi bu gün daha çox aktuallıq kəsb edir.

Humanist hisslər insanın ali hisslərinin filogenezində ən erkən hissləridir və bu hissləri ifadə edən məfhumlar da ta qədimdən mövcud olmuş, uzun inkişaf yolu keçmiş, nəhayət, "humanist", "humanist" terminlərinin yaranmasında prototil rolunu oynamışdır.

İnsanların fikirləri, arzuları, istəkləri elmi təfəkkür sayəsində yeniləşdiyi kimi humanizm tərbiyəsi də tərbiyə komponentləri tərkibində bəşər duyğularını, bəşər idrakının təsiri sayəsində dəyişir, inkişaf edir, yeniləşir, yeni forma və məzmun kəsb etmiş olur.

Humanizm əməl, davranış insanın şüur, hiss, iradə və hərəkətlərinin nəticəsi kimi özünü göstərir. Bu başqa insanlara, onların əməyi, fəaliyyəti, şəxsiyyətinə hörmət üzərində qurulur.

Humanizm dedikdə, həm də başqa insanların xoşbəxtliyi uğurunda mübarizə, onların istedad, bacarıq və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması inkişafı üçün şərait yaratmaq, insanlar arasında səmimi münasibətlər yaratmaq da başa düşülür.

Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq bərabər hüquqlu şəxslər kimi baxmaq: insanların ehtiyaclarına diqqətli olub onlara kömək etmək, onlara qarşı diqqətli olmaq, başqalarını anlamaq, başa düşmək bacarığı və s. daxildir.

Humanizm mahiyyətcə adamların hissiyyatının əsasını təşkil edir, onların arasında inkişaf etmiş münasibətlər doğurur. Bu münasibətlərin səciyyəvi təzahürləri yoldaşlıq, dostluq və qardaşlıqdır. Münasibətlərin bu üç növü onların arasındakı hüdudların silinməsinə insanpərvərlik səviyyələrini göstərir. İnsanlar arasında humanizm təzahürləri çox müxtəlifdir, hisslərin, şüurun və davranışının vəhdəti öz ifadəsini onların arasıkəsilməz əlaqələrində tapır.

Başqalarının daxili aləmini duymaq, insanı sevmək, ona lazımi kömək göstərmək humanizmin, insanlığın mədəniyyətinin ilkin şərtidir. Günlər, aylar, illər, əsrlər keçdikcə ən

qiymətli əxlaqi sərvətlər sayılan humanizm tərbiyə qanunauyğunluqlarının təsiri ilə mahiyyət və məzmunu daha da zənginləşmişdir.

“Humanistik” anlayışı, müasir dövrdə geniş istifadə olunaraq, ayrı-ayrı insanların və insan biliklərinin humanizm dünyagörüşü sistemi kimi həyata keçirilməsi, insanın mənəviyyatı şəxsiyyət kimi tanınması, onun azad inkişafa və özünü göstərməyə, şəxsiyyət kimi özünü təsdiqinə, insan rifahının, ictimai münasibətlərin kriterik qiyməti kimi qəbul edilir.

“Humanizm” və “Humanizmlik” sözləri bir kökdən gələrək latınca humanust-“insanlıq”, “insansevər” deməkdir. Humanizm əxlaqın tərkib hissəsi olub, iqtisadiyyat və mədəniyyətin bütün sistemi ilə təyin edilir. İnsanlar arasındakı münasibətdə humanizm ən qiymətli əxlaqi keyfiyyətdir. İnsanlar arasında münasibətlərdə ən qiymətli keyfiyyət-humanizmdir. Onun tarixi mənbələri və kökləri çox qədimdir. İntibah dövründə irəli sürülmüş humanizm prinsipi, sonrakı dövrlərdə inkişaf etmişdir. Əxlaq təsirli humanizm, dini ehkamlarda “öz yaxın adamını özün qədər sev”, insana məhəbbət haqqında kəlamlar özünə yol tapır. Humanizm insanı şəxsiyyət kimi qiymətləndirərək, onun azadlıq xoşbəxtlik inkişaf etmə və qabiliyyətini üzə çıxarma hüququna malik olduğunu qəbul edən baxışlar sistemidir. Bu sistem insan rifahını sosial hadisə kimi qiymətləndirən, bərabərliyi, ədaləti, insanlığı isə-cəmiyyətdə arzu olunan münasibət norması kimi hesab edən sistemdir. Humanistlik, insanlıq humanizmin müxtəlif istiqamətlərdə idealdır. Onun məqsədin insanların qabiliyyət sərvətlərini, insani hissini və əqlini, mədəniyyətini, əxlaqını, şəxsiyyətin davranışlarını və dünyaya münasibətini yüksək səviyyədə inkişaf etdirməkdir.

Humanizm anlayışı “insan” anlayışı ilə qarşılıqlı surətdə inkişaf edir. İnsanlar arasında münasibətlərdə ən qiymətli keyfiyyət-humanizm öz ifadəsini kollektivçiliklə sıx qarşılıqlı asılılıqda tapır. Onun tarixi mənbələri və kökləri çox qədimdir. İntibah dövründə irəli sürülmüş humanizm prinsipi, sonrakı dövrlərdə də inkişaf etmiş, müasir şəraitində də xüsusi qüvvə ilə təzahür olunmuşdur. Humanizmin ideyaları pedaqogika və sosial pedaqogikada rəngarəng inkişafını intibah dövründən alıb, halbuki humanist tərbiyə ideyaları hələ antik filosofların fikirlərində aydın şəkildə ifadə edilib. (Sokrat, Platon, Aristotel və b.)

XII-XIII əsr Azərbaycan mütəfəkkir və şairlərindən N.Gəncəvi, Ə.Xəqani, N.Tusi və digər görkəmli şəxsiyyətlərin əsərlərində humanizm geniş şəkildə, insanlığın müsbət şəxsi keyfiyyəti kimi təbliğ olunmuşdur.

Humanist tərbiyənin idealı şəxsiyyətin azad, sərbəst inkişafıdır. Tomas Morun, Fransua Rablenin, Mişel Montenin və başqalarının əsərlərində tərbiyənin məzmunu açılıb və humanist tərbiyənin mahiyyəti və vasitələrini özünü analiz və özünütərbiyə nümunəsi kimi işləmək izah edilmişdir. Humanist pedaqoqlar üçün əsas insana ümumi baxış, onun təbiəti və tərbiyəsidir. M.Montenin fikrincə, uşağı hər şeydən əvvəl kiçik yaşlarından təhsilli insan kimi tərbiyə etmək lazımdır, çünki pis əlamətlər ən zəif yaş dövründə doğulur, ailə tərbiyəsində səhvlərdən qaçmaq lazımdır tərbiyə uşağı korlamamalıdır, tərbiyəçilər özünüdərkə və təkmilləşməyə can atmalıdırlar, onlar hər şeyi bacarmalıdırlar, lakin bunu yalnız sevərək etməlidirlər.

Müasir humanizm mövqeyindən, insanın rifahı bütün sosial hadisələrin həqiqi qiymət ölçüləridir, kriteriyasıdır. Humanizm sosial həqiqətləri varlıq-mövcudluq mahiyyət nöqteyi-nəzərindən deyil, məcburi olmalı nöqteyi-nəzərdən əks etdirir. Cəmiyyətə və onun ayrı-ayrı nümayəndələrinə insan hörmətlə yanaşmaq tələbini irəli sürür, onu yer üzündə ən qiymətli varlıq kimi tanımağı tələb edir.

Humanizm komponentinə hörmət, həssaslıq, ədalətlilik, qayğı, inam, mərdlik və s. əlamətlər daxildir. Hörmət başqa adamların ləyaqətini, mənəvi sərvətini qiymətləndirmək deməkdir. Həssaslıq başqa adamları narahat edən, həyəcanlandıran problemlərə diqqət və

qayğı ilə yanaşmaqdır.

Humanizm tərbiyəsi insana, onun maraqlarına, tələbatlarına, qabiliyyətlərinə hörmətlə yanaşmağı, insanlara diqqətli olmağı, onların müsbət cəhətlərinə üstünlük verməyi, təşəbbüskarlığı düzgün qiymətləndirməyi tələb edir. Humanizm böyük təsir gücünə malikdir. O, əsl bəşəri münasibətləri yaratmağa mane olan hər şeylə mübarizəyə yönəltmişdir.

Humanizmin müasir anlayışı pedaqogika və sosial pedaqogikada tərbiyənin ümumbəşər və milli mədəniyyət sərvətləri əsasında yeniləşməsini əks etdirir, şəxsiyyətin yüksək intellektual, mənəvi və fiziki sərvətinin tərbiyəsini qurur.

Humanizm adamlara, insana məhəbbət, insanın qədrini bilmək, şəxsiyyətə hörmət, onun fərdiliyini, baxışlarının, mülahizələrinin, əməllərinin müstəqillik hüququnu, əgər onlar cəmiyyətin və kollektivin zərərinə deyilsə, təsdiq etmək kimi təzahürlərdə ifadə olunur.

Bununla yanaşı, humanizm-insana, onun vətəndaşlıq vəzifələrinə riayət etməsinə, öz ləyaqət hisslərini təzahür etdirilməsinə yüksək tələbkarlıqdır. Humanizm özündə bəşər varlığını əks etdirir. O, insan hissləri, iradəsi və ağılı ilə, bir sözlə mənəvi olan hər şeylə əlaqədardır. Belə anlamda dəyər humanistik yalnız "dərk olunan" deyil eyni zamanda həyatdır, ekzistensial olunmasıdır. O, şəxsiyyət vasitəsilə şəxsiyyətin daxili dünyasından keçərək ictimai şüura daxil olur.

Humanizm anlayışının əsasını uşaqları sevmək, uşaqlarda məhəbbət hissi tərbiyə etmək təşkil edir. Pedaqogika və sosial pedaqogikanın klassik nümayəndələri öz əsərlərində uşağa məhəbbət fikrini əsas tutublar. Bir neçə nümunə göstərək. Səfil uşaqlar üçün sığınacaq təşkil edən və onu böyük ailəyə çevirmək istəyən Pestalotsi öz dostlarından birinə ünvanladığı məktubda yazırdı: Mənim əllərim onların əllərindəydi, gözlərim onların gözlərinə baxırdı. Mənim göz yaşlarım onlarınkı ilə birlikdə axırdı və mənim təbəssümüm onların təbəssümlərini müşayiət edirdi. Mənim heç nəyim yox idi, nə evim, nə dostlarım, qulluqçuların, yalnız onlar var idi".

İkinci dünya müharibəsi zamanı Varşava getosunda yetimlər evində tərbiyəçi olan Yanuş Korçak qəhrəmancasına hərəkət etdi. Hitlerçilər bədbəxt uşaqları Tremblink sobalarında yanmağa məhkum etdilər. Onda Y.Korçakinə təklif etdilər ki, ya uşaqlarsız həyatı, ya da onlarla birgə ölümü qəbul etməlidir və o tərəddüd etmədən ölümü seçdi. Onda gestapoçu ona dedi ki, onu yaxşı bir həkim kimi tanıyırlar və onun Tremblinkə getməyinin mənası yoxdur. Y.Korçak cavab verdi: "Mən vicdanımla alver etmirəm". O, uşaqlarla birlikdə ölümə getdi, onları sakitləşdirməyə, qayğılarına qalmağa, uşaqların qəlbindən ölümə getdi, uşaqların qəlbindən ölümü gözləmək qorxusunu qovmağa çalışdı. Uşaqlara məhəbbət naminə ölümə getmək Korçak tərəfindən qəbul olunmuş, görünməmiş əxlaqi gücdür.

Uşaqlara məhəbbət V.A.Sxomlinski kimi görkəmli pedaqoqun həyatının əsas mənası olmuşdur. Onun həyatının şanlı əmək səhifəsi təsadüfi olaraq "Ürəyimi uşaqlara verirəm" adlandırılmayıb. Ş.A.Amonaşvilinin "Humanist pedaqogika", "Pedaqogikanın simfoniyası" əsərində diqqətə, qayğıya, məhəbbətə xüsusi yer verilib. Uşaqlara təmənnasız bağlı və onları sevən belə adamların siyahısını davam etdirmək olar.

Sosial pedaqoqların digər mütəxəssislərlə birgə əsas vəzifəsi-tərbiyəçilər, müəllimlər, psixoloqlar, yalnız uşaqları sevmək deyil, eyni zamanda onlara insanları sevməyi öyrətməkdir, öz ata və anasını, bacı və qardaşlarını, dostlarını və onlarla yaşayan hər bir kəsi sevməyi, başa düşməyi öyrətmək lazımdır. Sevmək, başa düşmək və başa düşülmək üçün sevərək-əməkdaşlıq etmək, sevərək-yaxşılıq etmək gərəkdir.

Diqqət mərkəzində əqli cəhətdən zəif olan uşaqlar tələb edir, əgər diqqət mərkəzində əqli cəhətdən zəif olan uşaqlar dayandıqda sosial pedaqogikada humanist ideyalar xüsusi qayğı və

yanaşma tələb edir. Bunu öz əsərlərində A.V. Suvorov çox parlaq şəkildə əks etmişdir. Humanist anlayışına nəzər salsaq, o, onu mərhəmət və xeyirxahlıq anlayışları ilə müqayisə edir. Mərhəmət, əvvəl qeyd olunduğu kimi, kimə isə kömək etmək istəyi və ya kimi isə bağışlaya bilməkdir, insanlıqdır, xeyirxahlıq-yaradıcılıqdır, köməyə ehtiyacı olan insanlara təmənnasız kömək etməkdir.

Belə düşünmək olar ki, humanistik insanlara münasibətdə, xüsusən də, inkişafdan geri qalanlara qarşı mərhəmətli və xeyirxah olmaqdır. Lakin A.V.Suvarov öz işlərində cəmiyyətdə bu hadisələri başqa cür qiymətləndirir. Şikəstlərə qarşı mərhəmətliliyi o, yazığı gəlmək kimi qiymətləndirir. Humanizm isə ona insan kimi işini qurmağa kömək etməkdir, digər insanlara nisbətən daha çətin vəziyyətə düşmüş əllilərə problemlərin aradan qaldırması üçün ətrafdakıların ona göstərdiyi yardım və ya qarşılıqlı köməyidir.

“Rəhimdililik” şikəst adamı qəyyumluğa götürməklə onu qulluq obyektinə çevirməkdir. Bununla belə şikəst bütün hüquqlardan məhrum olur, yalnız bir şeydən-yaxşılığa minnətdarlıq “hüququndan” başqa, ona görə ki, “mərhəmət”, ona fiziki olaraq mövcud olmaq icazəsi verib. Humanizm bu qarşıya çıxan problemlərə baxılması və birgə həll olunmasıdır (kömək edənlərin və köməyə ehtiyacı olanların). Onun fikrincə, rəhimlilik faktiki olaraq insanları şikəstlərə və şikəst olmayanlara ayırır: onlar normal adamların böyük dünyası və “biz”-rədd edilmiş şikəstlərin dünyasına, ümumi insani mədəniyyəti və şikəstlərin subyektiv mədəniyyətinə ayırır.

Humanizm isə əksinə, bu birləşmənin inteqrasiyasıdır, bütün insanların bir ümumi insan kollektivində birləşdirməyi nəzərdə tutur, belə ki, kimliyindən və necə olmasından asılı olmayaraq, hər bir kəsin çətinlikləri, problemi ola bilər. yalnız belə problemlərin həlli bu və ya digər insanın xüsusi köməyi ilə həll oluna bilər. Humanizm hamının prinsipial bərabərliyidir, bu və ya digər kənarlaşmaya-yayınmaya baxmayaraq həyata keçirilir.

Beləliklə, A.V.Suvarovun fikrincə, şikəst rəhmliliyə passiv qulluq obyekti kimi qəbul olunur, humanizm əsasında isə o öz problemlərini onu əhatə edənlərin köməyi ilə həll edən fəal obyekt kimi qəbul edilir.

Humanizm münasibətlərin əhəmiyyəti, onların təsirliliyindədir: insana yardım meylinə çətin şəraitdə onu müdafiə etmək, zəiflər və köməksizlərə qayğı göstərməkdə, adamlar arasında xoş münasibətləri, onların istirahətini və xoş əhval-ruhiyyəsini qoruyan praktik hərəkət və əməllərdəndir.

Humanizm probleminin xüsusi tədqiqi göstərir ki, təhsildə bu keyfiyyətin əmələ gəlməsi mürəkkəb prosesdir və bu, onların şüur və davranışlarının hazırlanmasında ayrılmaz vəhdəti tələb edir. Humanist əlamətlərin tərbiyəsində aşağıdakı mərhələlər nəzərdə tutulur: gənclərin insanlara köməyə yönələn ictimai fəaliyyətə cəlb edilməsi, adamlar arasında humanist keyfiyyətlərin düzgün qavranılmasının və başa düşülməsinin təşkili, gənclərin mühitində xudbin təzahürlərlə fəal mübarizə, mənəvi adətlərdə humanist münasibətlərin möhkəmləndirilməsi, humanizmin davamlı davranış formasına çevrilməsi.

Təəssüf ki, bizim cəmiyyətdə şikəstlərə yalnız rəhmliliyə möhtacı olan bir insan kimi baxılır. Cəmiyyətin belə problemi olan insanlara münasibəti, həqiqətən, onları xüsusi bir qrupa ayırır, eyni zamanda bu, insanları kiminsə qəyyumluğuna, cəmiyyətdən və insanlardan daim kömək almaq ehtiyacına sövq edir.

Bu kateqoriya insanlara humanist münasibət hər şeydən əvvəl onlara bərabər, layiq olduqları münasibəti tələb edir, halbuki, rəhimlilik olanlara çətinliklərin, şikəstlərin qarşısında duran problemlərin həll olunmasına kömək edər və etməlidir.

Bütün bunları davranışlarında çatışmazlıqlar olan uşaqlara da aid etmək olar. Belə uşaqlar

əhalinin əksər hissəsində onlara yazığı və rəhmi gəlmək hisslərini oyadır və buna görə də ilk növbədə xeyirxahlıq etmək məqsədi qarşıya çıxır. Təsadüfi deyil ki, müəyyən müəssisələrdə olan uşaqlar (cəmiyyətdən müvəqqəti icazə müəssisəsi) böyüklərin hər gəlişində onlardan hədiyyə gözləyirlər və cəmiyyətin fəaliyyəti buna yönəldilib. Hakim dairələrin və strukturların nümayəndələri, sadə vətəndaşlar, bu uşaqlara yardım etmək istəyən şəxslər, onlara maddi köməklik etməyə çalışırlar, halbuki onlar hər şeydən əvvəl hörmət, onların insanlıq ləyaqətinin tanınmasını, axtarış yollarını, onlara problemlərin həllində kömək tələb edirlər. Uşaqlara humanist münasibət, özündə onlara qarşı məhəbbət, taleyinə optimistik münasibət bacarığına marağı və inamı ünsiyyət üzərində qurulmuş münasibəti, onların çatışmazlığına səbirlə yanaşmanı birləşdirir və əhatə edir. Humanist münasibət uşaqların sərbəst seçiminə, səhvlərinə xüsusi nöqteyi-nəzərlərinə, hüquqlarına hörmətlə yanaşmağa üstünlük verir. Çalışmaq lazımdır ki, humanizm, xeyirxahlıq gənclərin mənəvi tələbatına çevrilsin.

Beləliklə, humanizm prinsipi sosial pedaqogikada uşağın şəxsiyyət kimi, onun cəmiyyətdə özünü tam azadlığının, xoşbəxtliyinin, həyatının təhlükəsizliyinin qorunması, sağlam inkişafı üçün şərait yaradılmasını, onun yaradıcılıq potensialı, bacarığı, özünütəyininə köməyi, cəmiyyətdə özünü tam reallaşdırmağı, təmin etməsinə şərait yaratmasını irəli sürür, nəzərdə tutur. Humanizm prinsipi aşağıdakı qaydalara riayət edilməsini tələb edir:

— cəmiyyətin bütün uşaqlarına fiziki, maddi, sosial vəziyyətindən asılı olmayaraq ləyaqətli münasibət bəsləmək;

— hər bir uşağa özü olmaq imkanı vermək, ona hörmətlə yanaşmaq: hörmət etmək-deməli başqasının sənin kimi deyil, özü olmaq haqqını, mənin-oxşarım olmamaq haqqını təsdiq etmək;

— uşağa formalaşma, özünə və ətrafdakılara hörmət problemlərində “Mən özüm” mövqeyinin formalaşmasına, özünün problemləri həll etmək arzusuna kömək etmək:

— rəhmlilik anlayışını humanizmin birinci mərhələsi kimi başa düşmək, hansı ki, yazıqlığa və rəhmi gəlməyə arxalanmamaq, ancaq uşaqların cəmiyyətdə inteqrasiyasına, mövqeyinin möhkəmlənməsinə kömək etmək, cəmiyyətin uşaqlar üçün və uşaqların da cəmiyyət üçün açıqlığını təmin etmək;

— uşaqları öz problemləri ilə xüsusi qruplara ayırmamaq və onları normal uşaqlardan seçməmək, əgər biz əlil uşaqları sağlam insanlar arasında həyata hazırlayırıqsa, belə uşaqların böyüklərlə və uşaqlarla ünsiyyət sistemini hazırlamaq.

**Məqalənin aktuallığı.** Humanizm hissi çox incə, kövrək, həm də ali hissdir. Bu hissi inkişaf etdirməyin təməli isə kiçik yaşlarından qoyulur. Humanistlik pedaqoji prosesi nizama salan normalar kimi çıxış edərək özündə bir çox mənəvi keyfiyyətləri daşıyır. Humanistlik pedaqoji peşəkarlığın əsas alətlərindən biri kimi çıxış edərək təlim-tərbiyə prosesinin mahiyyət və məzmununu dərinləşdirir. Müasir dövrdə humanistliyin mahiyyəti, funksiyaları və pedaqoji prosesdə yeri və rolu haqqında müəllim və tələbələrin dəqiq və anlaşıqlı biliyə malik olması olduqca vacibdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə “Humanizm” anlayışının mahiyyəti, məzmunu, funksiyaları şərh edilmiş, onların pedaqoji ədəbiyyatda verilən təsnifatları təhlil edilərək sistemləşdirilmiş və humanizm modeli verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə pedaqoji dəyərlərin izahı və onların təsnifatı haqqında verilən təhlil və ümumiləşdirmələr müəllim və tələbələrin, həmçinin magistrantların və digər tədqiqatçıların sosial pedaqogikada humanizm haqqında biliklərini dərinləşdirəcək və onların aydın və məzmunlu şəkildə dərkinə səbəb olacaqdır.

## Ədəbiyyat


1. Bədəlova Ə. Təlim-tərbiyə. Bakı, 2015.
2. KazımovN., Həşimov Ə. Pedaqogika. Bakı, 1996.
3. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2000.
4. Əhmədov B., Rzayev A. Pedaqogikadan mühazirə konsepektləri. Bakı, 1993.
5. Əhmədov H. Pedaqogika. Bakı, 2006.
6. Sadıqov F. Pedaqogika. Bakı, 2007.
7. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2008.
8. Kazımov N, Həşimov Ə. Pedaqogika. Bakı, 1996.


**А. Кадимова**

## Социально-психологическая сущность гуманизма

## Резюме

В статье указывается, что в социальной педагогике гуманизм является особым соображением и говорит о человеке и его духовном мире. Он ориентирован не только на гуманизм, но и на отношения с национальными ценностями. «Концепция гуманизма широко используется в современную эпоху как система гуманистического мировоззрения людей и людей, признание человеческой морали как личности, ее свободное развитие и самовыражение, самоутверждение и критическая ценность социальных отношений человеческого благосостояния. Под влиянием благородных гуманистических идей молодые люди пробуждаются в своих благородных чувствах и желаниях. Эти желания апеллируют к благородным поступкам.

**A. Gadimova**

## Socio-psychological essence of humanism

## Summary

The article points out that in social pedagogy, humanism is a special consideration and speaks of man and his spiritual world. It focuses not only on humanism, but also on the relationships with national values.

“The concept of humanism is widely used in the modern era as a system of humanistic outlook of individuals and human beings, recognition of human morality as personality, its free development and self-expression, self-affirmation, and the critical value of social relations of human well-being. Influenced by noble humanist ideas, young people are awakened in their noble feelings and desires. These desires appeal to noble deeds and deeds.

**Redaksiyaya daxil olub:** 08.07.2019